# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

6 sentyabr 2018-ci il
Cümə axşamı

№ 35 (3399)

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA RƏSMİ SƏFƏRİ

Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri başlayıb.

Soçi şəhərindəki "Boçarov Ruçey" dövlət iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.

Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb.

Dövlət başçıları görüşdə çıxış ediblər.

Sentyabrın 1-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə geniş tərkibdə görüşü və işçi naharı olub.

Geniş tərkibdə görüş və işçi nahar başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

Həmin gün sənədlərin imzalanması mərasimi başa çatandan sonra Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatlarla çıxış ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri sentyabrın 1-də başa çatıb.



## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANIN BAŞ NAZİRİ MAMUKA BAXTADZE İLƏ GÖRÜŞÜ OLUB

Azərbaycan Prezidenti İlham Əliyevin avqustun 30-da Gürcüstanın Baş naziri Mamuka Baxtadze ilə görüşü olub.

Gürcüstanın Baş nazirini Azərbaycanda səmimiyyətlə salamlayan Prezident İlham Əliyev Mamuka Baxtadzeni Baş nazir vəzifəsinə təyin olunması münasibətilə təbrik edib, bu məsuliyyətli vəzifədə ona yeni uğurlar arzulayıb.

Dövlətimizin başçısı vurğulayıb ki, Gürcüstan hökumətinin başçısı təyin olunmasından qısa müddət sonra Mamuka Baxtadzenin Azərbaycana səfər etməsi Azərbaycan-Gürcüstan əlaqələrinin çox yüksək səviyyədə olduğunu bir daha göstərir.

Azərbaycanda səfərdə olmaqdan məmnunluğunu bildirən Gürcüstanın Baş naziri Mamuka Baxtadze "Gürcüstan Dəmir Yolları" Səhmdar Cəmiyyətinin sədri kimi dəfələrlə Bakıda olduğunu xatırladıb, paytaxtımızda gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat hissi oyatdığını deyib və bunu Azərbaycanın böyük iqtisadi tərəqqisinin göstəricisi kimi qiymətləndirib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri Mamuka Baxtadze işçi nahar ediblər.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN QIRĞIZ RESPUBLİKASINA SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Sammitində iştirak etmək üçün sentyabrın 2-də Qırğız Respublikasına səfərə gəlib.

Çolpon-Ata şəhərinin İssuk-Kul beynəlxalq hava limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi Qırğız Respublikası Baş nazirinin birinci müavini Kubatbek Boronov və İssık-Kul vilayətinin qubernatoru Akılbek Osmonaliyev qarşılayıblar.

Sentyabrın 3-də Çolpon-Ata şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov ilə görüşü olub.

Sentyabrın 3-də Qırğız Respublikasının Çolpon-Ata şəhərindəki Çingiz Aytmatov adına "Rux Ordo" Mədəniyyət Mərkəzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) VI Sammiti işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə iştirak edib.

Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov Sammitdə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevi, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevi, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı, Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti Rüstəm Minnixanovu, Macarıstanın Baş naziri Viktor Orbanı qarşılayıb.

Dövlət və hökumət başçıları Çingiz Aytmatov adına "Rux Ordo" Mədəniyyət Mərkəzinin ərazisini gəziblər, burada açıq havada nümayiş etdirilən, qırğız xalqının görkəmli şəxsiyyətlərinin abidələrinə, eləcə də bu ölkənin tarixini, mədəniyyətini əks etdirən abidələrə baxıblar.

Sonra birgə foto çəkdirilib.

Daha sonra Qırğızıstan Prezidenti Sooronbay Jeenbekov, Azərbaycan Prezidenti İlham Əliyev və digər dövlət və hökumət başçıları çıxış ediblər.

Sentyabrın 3-də Çolpon-Ata şəhərində Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun adından Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv olan dövlətlərin başçılarının şərəfinə rəsmi ziyafət verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ziyafətdə iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qırğız Respublikasına səfəri sentyabrın 3-də başa çatıb.

## BİOMETRİK GÖSTƏRİCİLƏRİ ÖZÜNDƏ ƏKS ETDİRƏN BİR NÖMRƏLİ YENİ NƏSİL ŞƏXSİYYƏT VƏSİQƏSİ PREZİDENT İLHAM ƏLİYEVƏ TƏQDİM OLUNUB

Sentyabrın 1-dən Azərbaycanda yeni nəsil elektron şəxsiyyət vəsiqələrinin tətbiqinə başlanıb.

Azərbaycan Respublikası vətəndaşının biometrik göstəricilərini özündə əks etdirən bir nömrəli elektron şəxsiyyət vəsiqəsi avqustun 31-də Prezident İlham Əliyevə təqdim olunub.

Dövlətimizin başçısı şəxsiyyət vəsiqəsi üçün foto çəkdirib. Prezident İlham Əliyev elektron imza qoyub. Bir nömrəli elektron şəxsiyyət vəsiqəsi dövlətimizin başçısına təqdim olunub.

Daxili işlər naziri Ramil Usubov və iqtisadiyyat naziri Şahin Mustafayev elektron şəxsiyyət vəsiqəsinin hazırlanması və vətəndaşlara verilməsi ilə bağlı Prezident İlham Əliyevə məlumat veriblər.

Qeyd edək ki, yeni nəsil şəxsiyyət vəsiqələri təhlükəsizlik nöqteyi-nəzərdən köhnə vəsiqələrdən daha təkmil olacaq. Bu vəsiqələrə vətəndaşın yaşayış yeri üzrə qeydiyyatı, ailə vəziyyəti haqqında məlumatlar, habelə şəxsiyyət vəsiqəsi sahibinin biometrik fotosu və digər fərdi göstəriciləri özündə birləşdirən elektron daşıyıcı - çip yerləşdiriləcək. Bütün parametrlərə cavab verən, saxtalaşdırılmanın qarşısının alındığı, məlumatların elektronlaşdırıldığı yeni nəsil şəxsiyyət vəsiqələri üçün vətəndaşlar bütün ərazi polis orqanlarına və "ASAN xidmət" mərkəzlərinə müraciət edə bilərlər.

Şəxsiyyət vəsiqələrinin çapı isə Daxili İşlər Nazirliyinin 10 regional mərkəzində və iki "ASAN xidmət" mərkəzində həyata keçiriləcək.

**Azərbaycan Prezidenti İlham Əliyev avqustun 29-də Özbəkistan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri cənab Şavkat Mirziyoyevə təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı avqustun 29-da Zərdab rayonunun Ucar-Zərdab-Ağcabədi (21 km)-Birinci Alıcanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri avqustun 29-da "Azərbaycan Respublikasının Gənclər Fondu Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3784 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Avqustun 30-da Azərbaycan Prezidenti İlham Əliyev Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

❖❖❖❖❖

**Avqustun 30-da dövlətimizin başçısı Vyetnam Sosialist Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri cənab Çan Day Kuanqa təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Avqustun 31-də ölkəmizin rəhbəri Azərbaycan Respublikasında geologiya elminin inkişafında böyük xidmətlərinə görə Vasif Məmməd Ağa oğlu Babazadənin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev avqustun 31-də Elbrus Saleh oğlu İsayevin Naxçıvan Müəllimlər İnstitutunun rektoru təyin edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı avqustun 31-də Cəlilabad rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri avqustun 31-də San-Marinonun milli bayramı – Respublika Günü münasibətilə Kapitan-Regentləri zati-aliləri cənab Stefano Palmieriyə və cənab Matteo Çiaççiyə təbrik məktubu göndərib.**

❖❖❖❖❖

**Sentyabrın 4-də ölkəmizin rəhbəri Şəmkir rayonunun Şəmkir–Abbaslı–Nərimanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

**Dövlətimizin başçısı İlham Əliyev sentyabrın 4-də Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında sərəncam imzalayıb.**

## DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov sentyabrın 5-də Rusiya Federasiyasının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu qəbul edib...

## ÖLKƏMİZİN TRANZİT VƏ LOGİSTİK İMKANLARI ARTIR

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra öz əlverişli coğrafi mövqeyindən səmərəli istifadə edərək tranzit ölkəsinə çevrilmək üçün uğurlu layihələrin icrasına başladı. Bu layihələri həyata keçirmək üçün ilk növbədə, siyasi qərarlar qəbul edilməli idi. Məsələn, Azərbaycan TRASEKA layihəsinin təşəbbüskarı olduğu kimi, onun icrasında da mühüm rol oynadı. Dövlətimizin bu istiqamətdə apardığı siyasət öz müsbət nəticəsini verdi. Beləliklə, Transxəzər magistral xəttinin istifadəyə verilməsi ölkəmizdən yüklərin daşınmasına müsbət təsir göstərdi...

*Bax səh.2.*

# ÖLKƏMİZİN TRANZİT VƏ LOGİSTİK İMKANLARI ARTIR

**Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra öz əlverişli coğrafi mövqeyindən səmərəli istifadə edərək tranzit ölkəsinə çevrilmək üçün uğurlu layihələrin icrasına başladı. Bu layihələri həyata keçirmək üçün ilk növbədə, siyasi qərarlar qəbul edilməli idi. Məsələn, Azərbaycan TRASEKA layihəsinin təşəbbüskarı olduğu kimi, onun icrasında da mühüm rol oynadı. Dövlətimizin bu istiqamətdə apardığı siyasət öz müsbət nəticəsini verdi. Beləliklə, Transxəzər magistral xəttinin istifadəyə verilməsi ölkəmizdən yüklərin daşınmasına müsbət təsir göstərdi.**

Eyni zamanda, Azərbaycan Xəzər dənizində ən böyük mülki donanmaya malikdir. Bu, ölkəmizə Xəzər dənizi üzərindən yüklərin daşınmasında önəmli rol oynamağa imkan yaradır. Digər tərəfdən, Xəzər sahilində Ələt Beynəlxalq Ticarət Limanının tikintisi ölkəmizin tranzit və logistik imkanlarını genişləndirir.

Şimal-Cənub nəqliyyat marşrutu da Azərbaycan üçün xüsusi əhəmiyyət daşıyır. Bu dəhlizin fəaliyyətə başlaması Asiyadan Avropanın şimalınadək geniş bir ərazidə yükdaşımaların həcmini artırır. Hazırda bu marşrut üzrə dəmir yolu xəttində yenidənqurma işləri həyata keçirilir. Nəticədə qatarların sürət həddi artacaq, daha çox yük daşınmasına imkan yaranacaq.

Avqustun 12-də Aktauda Xəzər dənizinin hüquqi statusunu müəyyən edən konvensiyanın bağlanması da ölkəmizin tranzit imkanlarını genişləndirəcək. Belə ki, Xəzərin hüquqi statusunun qeyri-müəyyənliyi buradan yük göndərən ölkələri ehtiyatlı olmağa sövq edirdi. Yəni, qeyri-müəyyənlik bu marşrutdan səmərəli istifadə edilməsinə müəyyən əngəl törədirdi. Artıq bu problem də aradan qalxdı. Çindən Avropaya və əks istiqamətdə daşınan yüklərin 10 faizi Azərbaycan üzərindən nəql olunarsa, bu, ölkəmizə iqtisadi səmərə verməklə yanaşı, regionda və dünyada siyasi çəkimizi də artıracaq.



Möhtərəm Prezidentimiz İlham Əliyevin «Yeni Bakı Beynəlxalq Ticarət Limanının və liman ərazisində sərnişin terminalının tikintisi haqqında" imzaladığı sərəncam ölkəmizin tranzit və logistik imkanlarını daha da genişləndirəcək. Sənəddə qeyd edilir ki, Azərbaycanın regionun mühüm nəqliyyat və logistik mərkəzinə çevrilməsi siyasətinin reallaşması istiqamətində qarşıya qoyulmuş hədəflərdən biri də Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin kəsişməsində yerləşən, 2018-ci il mayın 24-də açılışı olmuş yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksidir. Kompleks ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici və mühüm yer tutmaqla, idxal, ixrac və tranzit yüklərin aşırılmasında strateji nəqliyyat qovşağı funksiyasını yerinə yetirərək Xəzər dənizi üzərindən effektiv, sürətli və təhlükəsiz keçidi təmin edir. Bu məqsədlə dövlət başçısı tərəfindən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tranzit imkanlarının genişləndirilməsi üçün dövlət büdcəsindən 10,2 milyon manat vəsait ayrılıb.

Ayrılan vəsait limanda nəzərdə tutulan işlərin sürətlə həyata keçirilməsində və tranzit yüklərin, xüsusilə idxal-ixrac əməliyyatlarının operativliyinin təmin edilməsində mühüm rol oynayacaq.

Prezident İlham Əliyev avqustun 13-də paytaxtın Qaradağ rayonunun Lökbatan qəsəbəsində inşa edilən Abşeron Logistika Mərkəzinin açılışında da iştirak edib. Dövlət başçısına məlumat verilib ki, burada inşaat işlərinə ötən ilin aprel ayından başlanılıb. Tarixi İpək yolunun üzərində yerləşən mərkəzin sutkalıq yükdaşıma qabiliyyəti 30 min ton təşkil edir ki, bu da ildə təqribən 11 milyon ton yükə bərabərdir. Mərkəz vasitəsilə ölkəmizdə istehsal edilən kənd təsərrüfatı məhsullarının xarici ölkələrə ixracı nəzərdə tutulub.

Müəssisə ilkin mərhələdə dəmir yolu və avtomobil yollarının qarşılıqlı əlaqələrini təmin edərək logistika xidməti göstərəcək. İkinci mərhələnin icrası üçün ayrılan əlavə 35 hektarda layihə işləri hazırlanıb. Bu mərhələ yekunlaşdıqdan sonra ölkəmizin coğrafi logistik imkanları genişlənməklə yanaşı, daha çox mənfəət əldə etməsinə imkan yaranacaq.

Abşeron Logistika Mərkəzində 2400 konteyner tutumu olan terminal, tutumu 21 min ton olan iriölçülü yük terminalı, 8100 kvadratmetrlik qapalı anbar sahəsi, açıq yük platforması və s. xidmətlər göstərəcək. Mərkəzdə yük maşınları üçün 200 yerlik park yaradılıb, dəmir yolu körpüsü və avtomobil yolları inşa edilib.

Bu müəssisə regionumuzda ən iri logistik mərkəzdir. İllik yükdaşıma qabiliyyəti 3,5 milyon ton olan terminal vasitəsilə idxal, ixrac və tranzit yüklərin daşınması həyata keçiriləcək. Mərkəzin tikilməsində əsas məqsəd müştərilərə müasir standartlara cavab verən xidmət göstərilməsidir. Bunun üçün bütün xidmətlər «vahid pəncərə" sistemi qaydası ilə həyata keçiriləcək.

Logistik mərkəzin yerləşdiyi ərazi də məqsədəuyğun seçilib. Belə ki, bu müəssisənin Bakı Baş Gömrük İdarəsinə, Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanına, regionun ən iri ticarət mərkəzlərinin yaxınlığında yerləşməsi onun iqtisadi əhəmiyyətini daha da artırır. Həmçinin Bakıya gələn 2 milyon ton yük şəhərdən kənarda yerləşən Abşeron Logistika Mərkəzinə yönəldiləcək. Bu da iritonnajlı yük maşınlarının şəhərə gəlişinin qarşısını alacaq, tıxacların sayını xeyli azaldacaq. Eyni zamanda, şəhərin ekologiyasına mənfi təsirin qarşısı alınacaq.

Yeni tranzit infrastrukturu olan Abşeron Logistika Mərkəzi Bakı-Tbilisi-Qars, İran-Astara-Bakı, Rusiya-Yalama-Ələt dəmir yolu marşrutları ilə əlaqəlidir. Bakı-Tbilisi-Qars dəmir yolu tam gücü ilə fəaliyyətə başladıqdan sonra bu mərkəz xarici ölkələrlə idxal-ixrac əməliyyatlarının və Azərbaycan ərazisindən multimodal yükdaşımalarının çevik həyata keçirilməsinə imkan yaradacaq. Mərkəzin Asiya ilə Avropanın, Şimalla-Cənubun qovuşuğunda yerləşməsi ölkəmizin tranzit əhəmiyyətini daha da artıracaq.

*Zeyni Hüseynov*

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI



**Respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov sentyabrın 5-də Rusiya Federasiyasının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu qəbul edib.**

Qonağı səmimiyyətlə salamlayan nazir yeni təyinat münasibətilə onu təbrik edib, təcrübəli diplomat kimi ona ölkəmizdəki xidməti fəaliyyəti müddətində uğurlar arzulayıb. Ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərinin əsrlər boyu mehribanlıq şəraitində və dinc yanaşı yaşayan xalqlarımızın mənafelərinə cavab verdiyi, hər iki ölkənin Prezidentləri zati-aliləri cənab İlham Əliyevin və zati-aliləri cənab Vladimir Putinin dostluq münasibətlərinə və siyasi iradələrinə uyğun olaraq əməkdaşlığın bütün sahələrdə, o cümlədən iki dövlətin aidiyyatı orqanları arasında uğurla inkişaf etdiyi, bugünlərdə möhtərəm dövlət başçımızın Rusiya Federasiyasına rəsmi səfər etməsindən, orada aparılan danışıqlardan, imzalanan sənədlərdən sonra ikitərəfli əlaqələrin artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, Daxili İşlər Nazirliklərini də sıx təmaslar və peşəkar əlaqələr birləşdirdiyi, səmərəli işbirliyinin ilbəil daha da möhkəmləndiyi bildirilib.

Daha sonra mövcud kriminogen durum, müstəqilliyin ilk illərində qarşılaşdığımız problemlər, Ermənistanın ölkəmizə təcavüzü nəticəsində torpaqlarımızın işğalı, ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra cəmiyyətin bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında aparılan islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində qazanılan uğurlar barədə qonağa məlumat verilib.

Nazir cəmiyyət həyatının bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında həyata keçirilən islahatlar barədə danışıb, cinayətlərin qarşısının alınmasında ən müasir informasiya texnologiyalarının, xüsusən DİN-in "Təhlükəsiz şəhər" Xidmətinin və "102 Xidməti" Zəng Mərkəzinin imkanlarından da geniş istifadə olunduğunu vurğulayıb.

Azərbaycan Respublikası və Rusiya Federasiyası Daxili İşlər Nazirliklərinin əlaqəli fəaliyyətinin hər iki ölkədə cinayətkarlıqla mübarizəyə, ictimai təhlükəsizliyin təmininə müsbət təsir göstərdiyini deyən nazir son illər qarşılıqlı faydalı işbirliyinin müxtəlif istiqamətlərində, xüsusən transmilli mütəşəkkil cinayətkarlığın növlərinə, o cümlədən, terrorçuluğa, narkotiklərin qanunsuz dövriyyəsinə, qeyri-leqal miqrasiyaya, insan alverinə qarşı mübarizədə, həmçinin cinayətlərin açılması, axtarışda olanların tutulması, onların ekstradisiyası, sərhədyanı regionlarda birgə razılaşdırılmış tədbirlərin keçirilməsi, yüksək ixtisaslı kadrların hazırlanması sahələrində müsbət nəticələr qazanıldığını məmnunluqla xatırladıb.

Səfir Mixail Boçarnikov səmimi qəbula, ətraflı məlumata görə təşəkkür edərək Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın vəziyyətindən məmnunluğunu bildirib. O, hazırkı görüşün də ikitərəfli münasibətlərin yüksək səviyyəsindən xəbər verdiyini, qarşılıqlı faydalı işbirliyinin müsbət nəticələri olduğunu xatırladaraq bütün sahələrdə əlaqələrin daha da genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə olunub.

*5 sentyabr 2018-ci il.*

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov avqustun 30-da Gürcüstanın Baş naziri Mamuka Baxtadzenin başçılıq etdiyi nümayəndə heyətinin tərkibində ölkəmizə səfərə gəlmiş Baş nazirin müavini, daxili işlər naziri Giorgi Qaxarianı qəbul edib.**

Səmimilik və işgüzarlıq şəraitində keçən görüş zamanı nazirlər xalqlarımız arasındakı dostluğun qədim tarixə malik olduğunu, ikitərəfli münasibətlərin, o cümlədən Daxili İşlər nazirlikləri arasında əlaqələrin hər iki ölkə rəhbərliyinin siyasi iradəsinə, müəyyənləşdirdikləri strategiyaya uyğun olaraq uğurla inkişaf etdiyini, belə görüşlərin əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə təkan verdiyini bildiriblər.

Təmsil etdikləri ölkələrdə kriminogen durum barədə qarşılıqlı fikir mübadiləsi aparan nazirlər onu da məmnunluqla vurğulayıblar ki, dövlətlərimizin müvafiq qurumları arasında əməkdaşlıq, ilk növbədə, beynəlxalq terrorçuluq, transmilli mütəşəkkil cinayətkarlıq, xüsusən narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri və qanunsuz miqrasiya ilə mübarizə sahəsində işbirliyi, təcrübə və informasiya mübadiləsi, yaradılmış normativ-hüquqi baza yaxın dost və strateji tərəfdaş olan ölkələrimizin mənafeyinə, bölgədə təhlükəsizliyin təmini işinə xidmət edir.

Səmimi qəbula və ətraflı məlumata görə cənab Ramil Usubova minnətdarlığını bildirən cənab Giorgi Qaxaria ölkəmizlə ikitərəfli münasibətlərin inkişafına böyük əhəmiyyət verdiklərini, bunun üçün səylərini əsirgəməyəcəklərini vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

*30 avqust 2018-ci il.*

# SÜLHƏ, SABİTLİYƏ VƏ İQTİSADİ YÜKSƏLİŞƏ XİDMƏT EDƏN ƏMƏKDAŞLIQ

**Rusiya Federasiyası ilə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək, keçmiş Sovetlər birliyi dövründən mövcud olan çoxşaxəli əlaqələri hazırkı geosiyasi gerçəkliklərə uyğun inkişaf etdirmək rəsmi Bakının xarici siyasətində mühüm yer tutur. Son illərdə bu əlaqələr bütün sahələrdə bərabərhüquqlu tərəfdaşlıq prinsipi əsasında qurulmuş, qarşılıqlı maraqlar çərçivəsində yüksələn xətlə inkişaf etmişdir. Strateji tərəfdaşlıq münasibətlərinin pozitiv tərəfləri özünü həm də Rusiya və Azərbaycan regionları arasında iqtisadi-ticari əlaqələrin genişlənməsində göstərir.**



İkitərəfli iqtisadi əlaqələrə gəlincə, onlar çox fəal inkişaf edir. 2017-ci ilin yekununa görə Rusiya və Azərbaycan arasında əmtəə dövriyyəsi, demək olar ki, 35 faiz artaraq 2,5 milyard dollara çatıb. Rusiyanın Azərbaycana birbaşa kapital qoyuluşu 1,5 milyard dollar təşkil edib. Azərbaycan bazarında təxminən 700 birgə müəssisə, onlardan da üçdə biri 100 faizlik Rusiya kapitalı ilə fəaliyyət göstərir. Sahibkarlıq birlikləri arasında, o cümlədən kiçik və orta biznes xətti ilə əlaqələr genişlənir. Rusiya-Azərbaycan İşgüzar Şurası təkcə ötən il ümumi dəyəri 450 milyon dollar olan 42 birgə layihəyə dəstək göstərib. Azərbaycanda Rusiyanın bir çox enerji şirkətləri uğurla işləyir. Bunlar "Qazprom", "Transneft" və "Lukoyl"dur. Ümumiyyətlə, Rusiyanın və Azərbaycanın enerji sistemləri inteqrasiya rejimində fəaliyyət göstərir. Sənaye sahəsində də kooperasiya dərinləşir.

Rusiya və Azərbaycan arasında hərtərəfli əməkdaşlığı zəruri edən mühüm amillərdən biri də məhz ölkələrimiz arasında tarixən formalaşmış iqtisadi əlaqələrdir.

Rusiya-Azərbaycan münasibətləri tamamilə yeni müstəviyə qədəm qoymuş, iqtisadi-siyasi, humanitar və enerji təhlükəsizliyi sahələrində əməkdaşlıq üçün real imkanlar açılmışdır. Azərbaycanla Rusiya arasında 100-dən çox müqavilə imzalanmışdır. Bunların 70-i dövlətlərarası və hökumətlərarası müqavilələrdir.

Hər iki dövlət rəhbərlərinin rəsmi və işgüzar səfərləri zamanı ikitərəfli iqtisadi-ticari əlaqələrin daha da gücləndirilməsini, qarşılıqlı informasiya mübadiləsini, hərbi-texniki və təhlükəsizlik sahəsində əməkdaşlığın dərinləşdirilməsini nəzərdə tutan mühüm sazişlər imzalanmışdır. Rusiya-Azərbaycan hökumətlərarası komissiyasının intensiv fəaliyyətinin nəticəsi olaraq ölkələrimiz arasında iqtisadi əlaqələr də yüksək dinamizmlə inkişaf edir. İdxal-ixrac əməliyyatlarının səviyyəsinə görə Rusiya Azərbaycanın əsas tərəfdaşlarından biri olaraq qalır. Qlobal böhranla müşayiət olunan 2010-cu ildə ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcminin 1,9 milyard dollar təşkil etməsi də qarşılıqlı faydalı əməkdaşlıq üçün mövcud olan zəngin potensialdan xəbər verir. Azərbaycan Rusiyadan əsasən buğda, qənd, şəkər çuğunduru, siqaret, sement qlingeri, meşə materialları, metal boru, ehtiyat hissələri, avtomobil idxal edir. Respublikamızdan Rusiyaya kartof, tomat, qoz, meyvə, çay, yağ, bitki yağı, piy, şirə, pambıq lifi, elektrik enerjisi, neft, qaz və neft-kimya məhsulları ixrac olunur.

Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra Rusiya ilə əməkdaşlığın qorunub saxlanması və möhkəmlənməsi ölkəmizin xarici siyasətinin ən mühüm prioritetlərindən biri olmuşdur. Şübhəsiz, bu işdə ümummilli lider Heydər Əliyevin xidmətləri çox böyükdür. Məhz Ulu Öndər siyasi hakimiyyətə qayıdandan sonra 1990-cı illərin əvvəlində aralarında müəyyən soyuqluq müşahidə edilən Azərbaycan-Rusiya münasibətlərini normallaşdırmağa nail oldu. İki ölkənin qarşılıqlı münasibətləri tarixində yeni səhifə isə cənab Vladimir Putin Rusiyanın Prezidenti seçiləndən sonra açılmışdır. Fərəhli haldır ki, müasir mərhələdə dövlətlərimizin başçıları – cənab İlham Əliyev və cənab Vladimir Putin bu əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəldə bilmişlər.

Yeri gəlmişkən, sentyabrın 1-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin iştirakı ilə imzalanan sənədlər iqtisadiyyatın, maşınqayırmanın, yeni texnologiyaların inkişafı kimi vacib sahələri əhatə edir.

Tərəflər qarşılıqlı fəaliyyətin səmərəsini yüksəltmək, energetika, iqtisadiyyat, nəqliyyat, kənd təsərrüfatı, innovasiyalar kimi ənənəvi sahələrdə əməkdaşlığı dərinləndirmək, kiçik və orta biznes qurumlarının inkişafına yardım etmək barədə razılığa gəlmişlər. Ümumilikdə, bu görüş hər iki ölkə regionları arasında investisiyaların qarşılıqlı təşviqi və stimullaşdırılması baxımından da vacib əhəmiyyətə malikdir.

*Ruhiyyə Əliyeva,*
*polis leytenantı*

# UĞURA DOĞRU GEDƏNLƏR TANIYAQ ONLARI...

**Bir müddət öncə Polis Akademiyasını əlaçı, özü də baş leytenant xüsusi rütbəsi ilə bitirən kursantlarla bağlı yazımızın həmkarlarımız arasında marağa səbəb olması bizi daha da ruhlandırdı. Yeri gəlmişkən, məqsədimiz həm də ölkə və DİN rəhbərliyinin diqqət və qayğısı ilə əhatə olunan, öz bilik və bacarıqları ilə cəmiyyətdə mövqe sahibinə çevrilən gənclərimizi ictimaiyyətə təqdim etməkdir.**

Polis kapitanı Nicat Naibov onu tanıyanların, kursantların, müəllimlərinin və eləcə də Akademiya rəhbərliyinin yadında əlaçı kursant olmaqla yanaşı, həm də Heydər Əliyev təqaüdçüsü kimi qalıb.

Nicat Naibov 1992-ci ildə Ağdamda doğulub. 2008-ci ildə Daxili İşlər Nazirliyinin Polis Akademiyasına daxil olub. Bundan sonrasını onun özündən eşidək:

-“Uşaqlığım elə bir dövrə təsadüf etdi ki, kiçik yaşlarımdan vətənsizlik acısı, ağrısı və həsrətlə böyüdüm. Hər dəfə Ağdam deyiləndə qəribə bir sükutun böyüklərimizi necə sardığının şahidi olurdum. İllər keçdikcə anladım ki, insan yaşadığı torpaq, sahib olduğu hər hansı bir şey haqqında heç vaxt xatirələrini danışmaz. Demək ki, səndən zorla alınan, qoparılan torpağın dərdi sonradan xatirəyə çevrilir, az da olsa yaşamağa ümid yaradır, bir inam yeri olur. Mənə elə gəlir ki, biz Ağdamı itirməklə bərabər həm də keçmişimizin, yaddaşımızın bir parçasını itirdik”…

Fikirlərindəki obrazlılıq, hadisələrə yanaşma, bədii yozum həm də gənc müstəntiqin sözə söykək biri olduğundan xəbər verir.

Polis olmaq uşaqlıq arzusu olub. Bu arzunun boy atmasında isə dayısı, xidməti tapşırıqları yerinə yetirərkən həlak olan polis mayoru Pənah Nəzərovu kədərlə xatırlayır.

Akademiyaya daxil olmağının sevincini ilk dəfə valideynləri ilə bölüşüb. Kursant adını qazanmağın sevinci Akademiyanı bitirənə kimi onu tərk etməyib. Elə ilk gündən əlaçı olmağı qarşısına məqsəd qoyub. Səbirlə, dözümlə, inadkarlıqla verilən bütün tapşırıqların öhdəsindən gəlib, qazandığı hər bir uğurla müəllimlərinin rəğbətini qazanıb. Sübut edib ki, yaxşı oxumaq, fərqlənmək üçün yaradılan şəraiti layiqincə qiymətləndirmək lazımdır.



Həm respublikamızda, həm də xaricdə keçirilən bilik yarışlarında, müsabiqələrdə daim fərqlənib. Polis kapitanı Nicat Naibov Akademiyanın üçüncü kur- sunda oxuyarkən təhsildəki nailiyyətlərinə görə polis kiçik serjantı rütbəsi ilə mükafatlandırılıb.

2013-cü ildə Akademiyanı bitirib. Ona Polis Akademiyasında müəllim işləmək təklif olunsa da, müstəntiq kimi xidmətini davam etdirmək arzusunda olduğunu bildirib. Çətin və məsuliyyətli bir işin altına çiyinlərini versə də əzmkarlığı sayəsində qarşısına çıxan çətinliklərdən sıyrıla bilib. İşdən qorxmayıb, öyrəndiklərini təcrübədə təsdiq edib, həm də peşəkarlardan öyrənib.

Deyir ki, müstəntiqin biliyi, bacarğı ilə onun təcrübəsi bir-birini tamamlamalıdır. Müstəntiq insan həyatı ilə başbaşadır. Hər bir törədilmiş cinayət faktını incələmək, haqlı qərar vermək zərgər dəqiqliyi tələb edir. Bunlarla yanaşı, müstəntiq tələb olunan müddət ərzində icraatındakı işi yekunlaşdırıb məhkəməyə təqdim etməlidir. Günahsız cəza almasın, günahkar cəzasız qalmasın deyə ekspertizanın ədalətli aparılmasına, təqsirləndirilən şəxsin istintaqa cəlb olunmasına, şahidlərinin izahatlarının alınmasına müstəntiq diqqətlə yanaşmalıdır.

“Polis kapitanı Nicat Naibov məsuliyyətli, peşəsini sevən, vətəndaşlarla xoş ünsiyyətdə olan, haqqı nahaqqa verməyən, savadlı müstəntiq olmaqla yanaşı, həm də bugünkü inkişafında, yetişməsində əməyi olan insanları, xüsusən də müəllimlərini unutmayan, etibarlı bir gəncdir”. Nizami RPİ-nin rəisi, polis polkovniki Ədalət Abbasov və RPİ-nin İstintaq şöbəsinin rəisi, polis polkovnik-leytenantı Müslüm Quliyev bu fikirləri deməklə kifayətlənmədilər, onun hər zaman axtarışda olduğunu da diqqətimizə çatdırdılar.

Ona hədəfin nədir sualıma cavab verməyə tələsmədi, amma gözləri doldu: “Hədəfim var dedi. Ancaq arzum budur ki, Qarabağın bəy otağı olan Ağdamda, öz ata-baba yurdumda xidmətimi davam etdirim, elimin-obamın xidmətçisi olum”…

*H.Təmirov, polis mayoru*

# BUDURMU VƏFASI...

**Xatirələr kaman kimi inildəyir, Habil müəllim. Bir zaman siz ağladırdınız, indi sizi ağlayırıq... Dərd sinəmizə çöküb həyatın dibinə sürükləyəndə yada düşən baməzə söhbətləriniz bizi yaşamağa ruhlandırıb. Yüzü haqlamağa ümidli olan insanın həyat sevgisini görəndə yaşamağın, sevməyin, həyatın şirinliyini anlamışıq.**

Nə oldu bəs? Əcələ bir-iki kəlmə xoş söz deyib, bir şirin lətifə danışıb onu fikrindən daşındıra bilməzdinizmi?

Kamanı titrədən barmaqlarınızın sehrini açmaq üçün nə dünyalara, nə dəryalara baş vurduq, bilirsinizmi?

O duzlu, məzəli söhbətlərinizə qulaq asandan sonra bir daha yəqin etdim ki, gülmək özü də ağlamağın bir başqa forması imiş. Böyük şairimiz Əli Kərim haqqınızda yazdığı bu cümlələrlə sizi bizlərə əmanət vermişdi:

***O zaman - deyəsən, vaxt qovuşanda***
***Şeirlə musiqi bir ucalırdı.***
***Bütün könüllərin sifarişilə***
***Damcılı bulaqda Habil çalırdı.***
***...Ürəyi çırpınır barmaqlarında,***
***Onlardan tökülür simlərə nəbzi...***
***...Nə dünyanı görür Habil, nə bizi...***

Hərdən adınıza “unutqan” da dedilər. Dedilər ki, Habil unutqandır. Kamanı əlinə aldımı, hamını, hər kəsi, hətta özünü belə unudur. Bəxtəvər də deyənlər oldu. Dedilər ki, bəxtəvər başına, dərdini kaman dilində danışdırır. Daha bilmədilər ki, Habil çoxları kimi üzdə ağlaya və gülə bilmir. Onun gülüşünün də, göz yaşlarının qatları çox dərindədir. Habil tarixdir, keçmişdir, gələcəkdir. Habil böyük bir diaspor təşkilatının görmədiyi işi kamanı ilə görən Kişidir.

Axı, Habil deyiləndə yadımıza Kaman, Kaman deyiləndə isə Habil düşür. O, dünya xəritəsində nöqtə boyda olan Azərbaycanı öz kamanı ilə tanıda bildi. Sən demə, əcnəbilərin, dili ayrı olanların dilini Habilin kamanı daha yaxşı bilirmiş.

O Kaman onları da ağlatmağı bacardı, onlara ürəklərinin, gözlərinin yerini göstərdi...

Mən Sizi ağlayan yox, kövrələn görmüşdüm, Habil müəllim. Güləndə də kamança kimi gülürdünüz...

Ey gidi dünya, ey yüzəcən səbr etməyən əcəl...

Danışmaqdan keçib artıq. Dünənədək böyük sənətkarla bağlı yeni xəbərlərə, təzə söhbətlərə, istəsək də, istəməsək də, ilahidən nöqtə qoyuldu. Daha saytların, qəzetlərin manşetində Habil Əliyevlə bağlı “isti-isti” xəbərlər yer almayacaq...

Azərbaycan adlı günəşin çevrəsində fırlanan doğma, yaşamaq həvəsi ilə dünyanı, insanları sevən bir Planeti itirdik. Özünüzlə böyük bir dünyanı apardınız, Habil müəllim.

Zaman bitdi - Habil zamanı. Ancaq hələ Habil kamanının sədasını gediləsi uzun bir yol gözləyir qarşıda. Çünki Azərbaycan xalqı var, Azərbaycan dövləti var...

Bu cümlələri yaza-yaza qulağımda bir mahnının xoş sədası dolaşır. "Habil Kaman" dünyasında, göz yaşları içində qeyri-adi qəriblik hissi, kövrək duyğular yaşayıram...

***Bu dərdə neyləsin loğmanın əli,***
***Əlimə dəyməmiş cananın əli,***
***Döydü qapımızı hicranın əli...***
***Budurmu vəfası ilk məhəbbətin?!***

Habil Əliyevə nəhayətsiz rəğbət və məhəbbətimiz həm də kamana olan ilk məhəbbətimiz sayıla bilər. Ancaq, o nəğmədəkindən fərqli olaraq, bizim ilk məhəbbətimizə vəfamız sonsuzdur.

*T.Hafiz*

# YAZIRLAR Kİ...

**Ölkəmizdə insanların hüquq və azadlıqlarını qorumaq dövlətin bütün qurumlarının təməl prinsipidir, xüsusən də asayişin təminatçısı olan polisimizin. Polis-vətəndaş münasibətlərinin daha da möhkəmləndirilməsi, vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılması da daxili işlər orqanları əməkdaşlarının xidməti fəaliyyətinin əsas istiqamətlərindəndir.**



Həmkarlarımızın fəaliyyətinin diqqət mərkəzində olmasını, ünvanımıza gələn çoxlu sayda minnətdarlıq məktubları bir daha təsdiqləyir. Yaşından, peşəsindən asılı olmayaraq, üzləşdiyi problemə çarə axtaranlar, onu polisin çevik və obyektiv fəaliyyəti sayəsində tapdıqlarından öz hisslərini təşəkkür dolu məktublarda ifadə edirlər. Böyüklərin məktublarına alışqan olsaq da kiçiklərdən, daha doğrusu məktəblilərdən gələn məktublarda da polisə olan sevginin, sayğının şahidi oluruq. “Biz hələ məktəbliyik. Qarşımıza məqsəd qoymuşuq ki, məktəbi bitirdikdən sonra DİN-in Polis Akademiyasına daxil olaq. Bunun üçün yaxşı oxuyuruq, həm də idmanla məşğul oluruq. Çünki polis sağlam və güclü olmalıdır. Asayişi qorumağı, cinayətkarlıqla qətiyyətli mübarizə aparmağın necə çətin və məsuliyyətli olduğunu bilirik. Yaşadığımız bölgədə, ərazidə polisin hansı əziyyətlərə qatlandığı, gecəli-gündüzlü xidmət apardığı gözlərimiz önündədir”.

Bu fikirlər 165 saylı orta məktəbin şagirdləri Taleh Yusibovun, Valeh Yusiflinin və Bərdədən Vüsal Quliyevin DİN rəhbərliyinə ünvanladıqları təşəkkür məktublarındandır.

Azərbaycanın Milli Qəhrəmanı Zabit Quliyev müraciətinə tez və obyektiv baxılmasına görə Bakı Şəhər Baş Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

Goranboydan Nazim Adilov səhhətində yaranan problemin aradan qaldırılmasında ona göstərdikləri köməyə görə DİN-in A.Heydərov adına Respublika Hospitalının rəhbərliyinə və tibbi personala öz təşəkkürünü bildirir.

Paytaxt sakini Şəbnəm Eldarova DİN-ə ünvanladığı məktubunda metroda baş vermiş texniki nasazlıq zamanı onlara göstərilən köməyə görə Azərbaycan Polisinə təşəkkürünü bildirir.

Ağcabədi rayon sakini Sabir Əliyev DİN rəhbərliyinə ünvanladığı məktubunda ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə polisin rolunu yüksək dəyərləndirir.

Paytaxt sakinləri Samirə Eyvazova və Dilarə Məlikzadə şikayətlərinə tez və obyektiv baxılaraq, onlara dəyən ziyanın ödənilməsində göstərdikləri köməyə görə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşlarına təşəkkürlərini bildirirlər.

*Aytəkin Nəcəfova, polis polkovnik-leytenantı*

# ÖLÜMÜN RƏNGİ OLMUR

**Dünyanın siyasi mənzərəsi elə də ürəkaçan deyil və dinlər, dillər arasındakı toqquşmalar onu daha böyük bəlalarla üzbəüz qoyur. Ancaq son iki əsrdə insanlığın məhvinə yol açan real təhlükəni-narkomaniyanı görən böyük güclər, beynəlxalq təşkilatlar onun qarşısını almaqda təəssüflər olsun ki, acizdirlər. Bu gün narkomaniya sözü dilimizin lüğət tərkibində özünə yer edib və az qala ümumişlək sözə çevirilib.**

Ölkəmiz müstəqillik əldə etdikdən sonra bir sıra problemlər kimi, narkotizm probleminə qarşı mübarizə tədbirləri görülməsinin vacibliyi də ön plana çıxmış, bir sözlə, problemə münasibətdə yeni mərhələ başlanılmışdır. Şərti olaraq “yeni” adlandırdığımız bu mərhələnin ən uğurlu cəhəti ondan ibarətdir ki, narkotizmə qarşı mübarizədə dövlət orqanları ilə yanaşı, ictimai təşkilatların fəaliyyəti üçün də lazımi şərait yaradılmışdır.



Azərbaycan Respublikasında narkotizmlə və narkobizneslə mübarizənin əsası ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş “Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında” 18 iyun 1999-cu il tarixli Qanun ilə qoyulmuşdur.

Bu gün KİV-lərdə bu bəlanı “ağ ölüm” kimi cəmiyyətə təqdim edirlər. Və belə yanaşmaya münasibət bildirməmək, əlbəttə ki, olmaz. Kiçik yaşlarımızdan ağ rəngi bizlərə sülh rəngi kimi təqdim ediblər və xalqımızın deyimlərində, duyumlarında ağ rəng xoşbəxtlik rəmzi kimi tarixə çevrilib. Fikrimizi əsaslandırmaq üçün ağsaqqal babalarımızın, ağbirçək nənələrimizin bu alqışını diqqətinizə çatdırmaq istəyirik: “Günün ağ olsun”, “Səni görüm ağ gün görəsən”. Belə olan təqdirdə bəs nə üçün biz ağ rənglə ölüm arasında paralelləşmə aparırıq? Ağ rəng ölüm deməkdirsə, niyə sülhün rəmzi olan göyərçinlər ağ rəngdədir?

Cəmiyyətdə zərərli vərdişlərin təbliğində və onlarla mübarizədə KİV-in rolu danılmazdır. Bəs bu gün narkomaniya ilə mübarizədə KİV-lərdə aparılan təbliğat effektini verirmi, o cəmiyyətin istəkləri ilə üst-üstə düşürmü? Etiraf edək ki, bəla ilə mübarizə üçün təklif cəmiyyətdən, sabahımızı düşünən insanlardan gəlsə də onunla mübarizədə daha kəskin qətiyyət nümayiş etdirən hüquq-mühafizə orqanları, eləcə də Azərbaycan Polisidir. Şəxsi müşahidələrimizə əsaslanaraq, deyə bilərik ki, DİN rəhbərliyinin göstərişi ilə paytaxtda və yerlərdə narkomaniya, erkən nikah və dini radikalizm mövzusunda polis tərəfindən mütəmadi olaraq, məktəblərdə və əmək kollektivlərində maarifləndirmə tədbirləri keçirilir. Narkomaniya ilə mübarizədə keçirdikləri tədbirlərə KİV-ləri dəvət edən daxili işlər orqanları ilə bağlı apardığımız araşdırma qənaətbəxş hesab oluna bilər. Paytaxtın Xətai, Sabunçu, Nərimanov və Nizami RPİ-ləri DİN-in Mətbuat Xidməti vasitəsilə KİV-lərlə daha sıx şəkildə əlaqə saxlayır, onların dəstəyindən yararlanırlar. Ancaq bəzi saytlarda narkotiklərlə, kriminal aləmlə bağlılığı olan “oğru aləmi”nin hər hansı bir nümayəndəsi cəmiyyətə qəhrəman kimi sırınır. Fikrimizcə, belə saytlar, xəbər portalları ictimai qınaq obyektinə çevrilməlidir. Təəssüf hissi ilə qeyd etmək olar ki, paytaxtımızda bu gün gənclərin aludəçisinə çevrildiyi zərərli vərdişlərdən biri olan qəlyan çəkmək üçün yerlər açıq şəkildə reklam olunur. Deməli, bu işdə KİV-lərin fəaliyyətsizliyi özünü açıq şəkildə biruzə verir.

**Ardı 4-cü səhifədə.**

# MARAQ DÜNYASI



*KÖMƏKÇİ ROBOT*

Lüksemburq Universitetinin alimləri “QTrobot” adlı robotun təqdimatını keçiriblər. Bu robot autizm spektr pozğunluğundan əziyyət çəkən uşaqların müalicəsi məqsədilə hazırlanıb.

Autizmdən əziyyət çəkən insanlarda erkən yaşlardan sosial qarşılıqlı əlaqələrdə problemlər müşahidə edilir. Əksər hallarda belə insanlar qapalı olur, çətinliklə yeni münasibətlər qurur və ünsiyyət saxlayırlar.

Alimlər belə hesab edir ki, ünsiyyət zamanı mütəxəssislərlə birgə robot-vasitəçidən istifadə edilməsi uşaqlara təlim və ünsiyyət zamanı psixoloji narahatçılıqdan xilas olmaqda kömək edə bilər. “QTrobot” söz, jest və üz ifadələrinin köməyilə ünsiyyət yaradır. Məsələn, robotun köməyilə uşağa emosiyaları tanımağı, ünsiyyət qurmağı və sadə tapşırıqları səmərəli yerinə yetirməyi öyrətmək mümkündür.

Mütəxəssislər autizmdən əziyyət çəkən 4-14 yaş aralığında 15 uşağın robot və həkimlə olan terapiya seansını müqayisə ediblər və məlum olub ki, uşaqlar robota daha çox diqqət yetirir: onlar robota orta hesabla iki dəfə daha çox baxıblar.

*YENİ TƏDQİQATLAR*

Astronomlar Yer kürəsinə bənzəyən və Günəş sistemindən kənarda yerləşən ekzoplanetlərdə həyat əlamətlərinin olması ilə bağlı fərziyyələri araşdırırlar. Son tədqiqatların nəticəsində bu ehtimallar daha da artıb.

ABŞ-ın Boston şəhərində keçirilən konfransda Harvard Universitetinin astrofiziki Li Tszen bu məsələ ilə əlaqədar yeni tədqiqatların nəticələrini açıqlayıb. Onun sözlərinə görə, elmə məlum olan ekzoplanetlərin üçdəikisində (onların ölçüsü Yerdən daha böyükdür) su ehtiyatları mövcuddur. Bundan başqa, bu göy cisimlərinin bir çoxunda olan su planetin ümumi çəkisinin 50 faizini təşkil edir. Məlumdur ki, Yer planetində bu göstərici cəmi 0,02 faizdir. Li Tszen bildirib ki, bu məlumatlar ABŞ-ın “Kepler” rəsədxanasının və Avropanın “Gaia” teleskopunun müşahidələri əsasında əldə edilib.



Astronomların qənaətinə görə, Yerdən 2,5 dəfə böyük olan bu ekzoplanetləri “su dünyası” da adlandırmaq olar. Onların çəkisi bizim planetə nisbətən 10 dəfə artıqdır. Digər tərəfdən, bu planetlərdəki su daha fərqlidir. Ekzoplanetlərin səthində temperaturun 200-500 °C arasında olduğu güman edilir. Onlar su buxarından və aşağı qatlarda nazik maye təbəqəsindən ibarət atmosferlə əhatə olunub. Daha dərinlərdə - planetlərin sərt nüvə qatında buz kütləsi ola bilər.

*Ruhiyyə Əliyeva*

*Əvvəli 3-cü səhifədə.*

# ÖLÜMÜN RƏNGİ OLMUR

Qazaxstan Respublikasında isə bunun əksinə maraqlı bir əməliyyat həyata keçirilib. Belə ki, Kızılorda vilayət prokurorunun sanksiyası əsasında narkotik maddələri reklam edən 15 sayt bağlanıb. Prokurorun sözlərinə görə, ölkədə həyata keçirilən "narkotiksiz gələcək" layihəsi çərçivəsində narkomanlığa və narkoticarətə qarşı profilaktik tədbirlər görülür. O, bildirib ki, internet resurslarında aparılan monitorinq nəticəsində 15 saytın narkotik maddələri reklam etdiyi, satış yerlərini və qəbulu qaydalarını öyrətməsi və təbliğ etməsi aşkarlanıb. Ölkəmizdə narkomaniya ilə mübarizəyə, narkotiklərin zərərinə, bu səpkidə aparılan maarifləndirmə işlərinə mütəmadi yer ayıran qəzetlərin sırasında "İki sahil" qəzetini xüsusi vurğulamaq olar. Araşdırmamız zamanı maraqlı nüansların şahidi olduq. Qeyd edək ki, 2016-ci ildə narkotiklərlə mübarizəyə, onun zərərinə dair həmin qəzetdə 55 məqalə, 2017-ci ildə isə 45 məqalə dərc olunub.



"Narkomaniya ilə mübarizə tədbirləri ilə bağlı polisin keçirdiyi uğurlu əməliyyat və maarifləndirmə tədbirlərinə dair Daxili İşlər Nazirliyinin mətbu orqanı "Mübariz keşikdə", Bakı Şəhər Baş Polis İdarəsinin "Polis", DİN Daxili Qoşunlar Baş İdarəsinin "Əsgər" və Polis Akademiyasının "Polis Akademiyası" qəzetlərində, o cümlədən "Asayişin keşiyində" jurnalında məqalələr dərc edilir.

Fikrimizcə, narkomaniya ilə mübarizədə ədəbiyyatın, şairlərin, yazıçıların da üzərinə böyük məsuliyyət düşür. Demək olmaz ki, belə nümunələr yoxdur. Araşdırma zamanı gənc yazar, Şəfa Vəlinin "Bəyaz ölüm" pyesinə rast gəldik. Pyesdə ailə başçısı narkomaniyanın qurbanına çevrilmiş gənc ailənin faciəsi əksini tapır. Son zamanlar cəmiyyətin kitaba qayıdışından istifadə edərək narkotiklərlə mübarizə mövzusunda və ya onlarla mübarizədə həlak olan hüquq-mühafizə orqanları, eləcə də polis əməkdaşları haqqında ədəbi nümunələrin yazılmasına önəm verilməlidir. Bu mövzuda tərəfimizdən polis veteranlarından, torpaqlarımız uğrunda şəhid olmuş həmkarlarımızdan və cinayətkarlıqla mübarizədə həyatını itirmiş əməkdaşlarımızdan bəhs edən "Sevgi də bir Vətəndir" kitabında 2007-ci ildə narkotacirlərlə mübarizədə həyatını itirmiş polis polkovnik-leytenantı Namiq Musayev barədə "Anda əbədi sədaqətlə" adlı oçerki işıq üzü görüb.

***Hafiz Təmirov,***
***polis mayoru***




## "XƏZRİ" sizi gözləyir!




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1 iyun 2018-ci il tarixdən 15 sentyabr 2018-ci il tarixədək mövsüm üzrə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd: 1.** "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

**2.** Bir günlük xərc tək polis əməkdaşı üçün 28.75 manat (iki nəfərlik nömrəni tək tutduqda 42.50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 86,36 manat, özü və 5-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 72,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 115 manat və onlarla birgə 5-12 yaşadək uşağa əlavə yer verildikdə 145 manat təşkil edir.

**3.** Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

**4**. 3-5 yaşda uşaqların qalması ödənişsizdir.

**5.** Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, trenajorlardan, akvaparkdan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metrostansiyasından 171 nömrəli avtobus gəlir.

**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 1 iyun 2018 -ci il - 15 sentyabr 2018-ci il (2 nəfərlik standart otağın qiyməti : iki nəfər qaldıqda 230 manat, bir nəfər tək qaldıqda 170 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 28,75 | 42,50 |
| Onun ailə üzvü (50% güzəştlə) | 57,50 | 85,00 |
| Polis əməkdaşı ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 115 | 170 |
| Valideyni ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 | |




Gürcüstanda oktyabrın 28-də keçiriləcək prezident seçkiləri ilə bağlı təhlükəsizliyi xüsusi polis qrupları təmin edəcək. Bununla əlaqədar olaraq nazir Giorgi Qaxariya xüsusi əmr imzalayıb. Əmrə əsasən xüsusi qruplar sentyabrın 30-dək tam formalaşdırılacaq.

DİN-in müxtəlif təyinatlı strukturlarının əməkdaşlarının daxil olacağı xüsusi qruplar seçkiqabağı kampaniya zamanı və səsvermə günü baş verə biləcək bütün hüquqpozmaların qarşısını alacaq. Bu qruplar, seçki bülletenlərinin hazırlanması və paylanması qaydalarına, həmin gün seçki məntəqələrinin yaxınlığında sabitliyə nəzarət edəcək, həmçinin bütün siyasi qrupların hüquqlarını bərabər şəkildə qoruyacaqlar.

*****

***ABŞ-da polis əməkdaşları "Təcili yardım" serialının ulduzu Vanesa Markesi yaşadığı mənzildə güllələyiblər. Hadisə Los Ancelesdə baş verib.***

***Bildirilir ki, aktrisa müxtəlif xəstəliklərdən, o cümlədən psixi çatışmazlıqdan əziyyət çəkirdi. Polis bölməsinə edilən zəng əsasında 49 yaşlı aktrisanın evinə yollanan polislər onu xəstəxanaya getməyə razı salmağa çalışsalar da, bu, mümkün olmayıb. Bu zaman V.Markes qəflətən əlinə oyuncaq tapançanı götürüb, polislər isə onu əsl tapança olduğunu düşündüyündən atəş açıblar. Nəticədə aktrisa güllə yarası alıb. O, xəstəxanaya çatdırılarkən yolda ölüb.***

*****

Böyük turoperator şirkətinin İsveç bölməsi robotu işə götürüb. Yeni əməkdaş olan «Pepper» adlı robot ətraf mühiti tanıyır və insanların emosiyasına reaksiya verir. Robot ayaq əvəzinə, kiçikölçülü təkərlərdən ibarət sistemə malikdir. Sinəsinə informasiyanın göstərilməsi və insanlarla əlaqə yaradılması üçün 10 düymlük planşet quraşdırılıb.

Robot danışığı başa düşür: yaddaşı təxminən 4500 sözdən ibarətdir. O, danışa, rəqs edə, söhbəti dəstəkləyə və sadə tapşırıqları yerinə yetirə bilər.

Kruiz və otel biznesində robotlardan istifadə təcrübəsi artıq olub, lakin turoperatorun ofisində belə texnikadan ilk dəfə istifadə ediləcək.

*****

***ABŞ-ın Yuta Universitetində çalışan dosent Raceş Menonun komandası adi şüşədən keçən işığın passiv ələ keçirilməsi texnologiyasını işləyib hazırlayıb. Bunun üçün şüşədə səpələnmiş vəziyyətdə olan işığı ilkin təsvirə çevirəcək xüsusi alqoritm hazırlanıb.***

***Nəticədə istənilən pəncərəni videokameraya çevirmək üçün sadə aksesuar dəstini kompüter və ya başqa hesablama qurğusuna qoşmaq kifayətdir. Mütəxəssislər bildiriblər ki, istənilən pəncərənin arxasında maraqlı hadisələr baş verir, amma bunu qeydə almaq üçün pəncərənin qarşısında videokamera quraşdırmaq lazımdır. Yeni texnologiya bu məhdudiyyəti qismən aradan qaldırmağa imkan verir.***

***Natiq Cavadov***

## Avqustun 29-dan sentyabrın 4-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 820 cinayət qeydə alınmış, onların 174-ü «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 83 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 161 nəfər, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 11 nəfər, borclu şəxs qismində axtarışda olan 67 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 23 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 12 nəfər ölmüş, 44 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 78 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 211 nəfər saxlanılmışdır.

Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev və şəxsi heyəti Ağstafa RPŞ-nin rəisi Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş İnformasiya Kommunikasiya İdarəsinin rəisi Dilqəm Aslanov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİN Katibliyinin Mətbəəsinin rəisi Zaur Hüseynov və şəxsi heyəti
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Nərimanov RPİ-nin rəisi Nəriman İmanov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nizami RPİ-nin rəisi Ədalət Abbasov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran ŞRPŞ-nin rəisi İslam Hümbətov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yeganə Məmmədova və Sədaqət Quliyeva DİN İdman Cəmiyyətinin rəis müavini Elçin Rüstəmova anası
**DÜRNİSƏ RÜSTƏMOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Balakən RPŞ-nin rəisi Elnur Həsənov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan ŞPŞ-nin rəisi Hikmət Quliyev və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Pirallahı RPŞ-nin rəisi Cümşüd İsmayılov və şəxsi heyəti
**ABDUL ZƏRGƏRLİNİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Yardımlı RPŞ-nin rəisi Arif Babayev və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yevlax RPŞ-nin rəisi Vaqif Müslümov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ RPŞ-nin rəisi Nadir Məmmədov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdaş RPŞ-nin rəisi Rasim Mustafayev və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi RPŞ-nin rəisi Məhəmməd İbrahimov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağdam RPŞ-nin rəisi Elçin Qasımov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tərtər RPŞ-nin rəisi Rauf Məcidov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Cəlilabad RPŞ-nin rəisi Mübariz Quliyev və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ucar RPŞ-nin rəisi Eldar Paşayev və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Biləsuvar RPŞ-nin rəisi Əlyəddin Səfərov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Laçın RPŞ-nin rəisi Adil Əsədov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəmkir RPŞ-nin rəisi Cəmil Əmirov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qax RPŞ-nin rəisi Elnur Mehdiyev və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hacıqabul RPŞ-nin rəisi Məmməd Hüseynov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astara RPŞ-nin rəisi Azər Cahangirov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağsu RPŞ-nin rəisi Fəxrəddin Abbasov və şəxsi heyəti Elsevər Aslanova qardaşı
**ASLAN ASLANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.279
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 19:00